AZƏRBAYCAN RESPUBLİKASININ
İQTİSADİYYAT NAZİRLİYİ YANINDA
DÖVLƏT VERGİ XİDMƏTİ

# MUZDLU İŞLƏ ƏLAQƏDAR TUTULAN GƏLİR VERGİSİ, MƏCBURİ DÖVLƏT SOSİAL SIĞORTA, İŞSİZLİKDƏN SIĞORTA VƏ İCBARİ TİBBİ SIĞORTA HAQQI

BAKI – 2021



Muzdlu işə cəlb edilən şəxslərlə əmək müqaviləsi bağlanmalı və onun hüquqi qüvvəyə minməsi üçün müvafiq məlumat www.e-gov.az internet səhifəsi üzərindən elektron imza (http://www.e-imza.az/index.php?lang=az) və ya “Asan İmza” (http://asanimza.az) vasitəsi ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin informasiya sisteminə daxil edilməlidir.



%

# Muzdlu işdən əldə edilən aylıq gəlirlərdən tutulan gəlir vergisi, məcburi dövlət sosial sığorta, işsizlikdən sığorta və icbari tibbi sığorta haqlarının dərəcələri barədə

## Neft-qaz sahəsində fəaliyyəti olmayan və qeyri-dövlət sektoruna aid edilən vergi ödəyicilərində işləyən fiziki şəxslərin muzdlu işdən aylıq gəlirləri üzrə

**Muzdlu işlə əlaqədar əmək haqqından tutulan gəlir vergisi üzrə (2019-cu il yanvarın 1-dən 7 il müddətində):**

- Vergi tutulan aylıq gəlirin məbləği 8000 manatadək olduqda 0 faiz;
- Vergi tutulan aylıq gəlirin məbləği 8000 manatdan çox olduqda 8000 manatdan çox olan məbləğin 14 faizi həcmində gəlir vergisi tutulur.

**Məcburi dövlət sosial sığorta haqqı üzrə (2019-cu il yanvarın 1-dən 7 il müddətində):**

- Sığorta haqqına cəlb edilən aylıq gəlirin məbləği 200 manatadək olduqda sığortaolunanın gəlirlərindən 3 faiz, sığortaedənin vəsaiti hesabına 22 faiz olmaqla ümumilikdə 25 faiz;
- 200 manatdan çox olduqda sığortaolunanın gəlirlərindən 6 manat + 200 manatdan çox olan hissənin 10 faizi, sığortaedənin vəsaiti hesabına 44 manat + 200 manatdan çox olan hissənin 15 faizi olmaqla ümumilikdə 25 faiz dərəcə ilə məcburi dövlət sosial sığorta haqqı tutulur.

**İcbari tibbi sığorta haqqı üzrə:**
Sığortaolunanın sığorta haqqına cəlb edilən aylıq gəlirlərinin 8000 manatadək olan hissəsinin 1 faizi, 8000 manatdan yuxarı olan hissəsinin 0,5 faizi, sığortaedənin vəsaiti hesabına isə sığortaolunanın sığorta haqqına cəlb edilən aylıq gəlirlərinin 8000 manatadək olan hissəsinin 1 faizi, 8000 manatdan yuxarı olan hissəsinin 0,5 faizi dərəcəsi ilə icbari tibbi sığorta haqqı tutulur.*

**İşsizlikdən sığorta haqqı üzrə:**
- Sığortaedən tərəfindən ödənilən sığorta haqqı üzrə – hesablanmış əməyin ödənişi fondunun 0,5 faizi;
- Sığortaolunan tərəfindən ödənilən sığorta haqqı üzrə – işçinin əməkhaqqının 0,5 faizi həcmində işsizlikdən sığorta haqqı tutulur.

**Hesablanmış məbləğlərin ödənilmə müddəti:**
- fiziki şəxslərin aylıq gəlirlərindən ödəmə mənbəyində tutulan gəlir vergisi növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli;
- məcburi dövlət sosial sığorta, işsizlikdən sığorta və icbari tibbi sığorta haqları hər ay üçün əmək haqqı və digər gəlirlər üzrə ödənişlərlə eyni vaxtda hesablanmalı, sonrakı ayın 15-dən gec olmayaraq, tam məbləğdə nağdsız hesablaşma qaydasında aidiyyəti fondlara ödənilməlidir.

---

* Əməkhaqqının 8000 manatadək hissəsindən sığortalı və sığortaolunan tərəfindən ödənilən 2 faiz sığorta haqqının məbləğinə neft-qaz sahəsində fəaliyyəti olmayan və qeyri-dövlət sektoruna aid edilən sahələr üzrə 2022-ci il yanvarın 1-dək 50 faiz güzəşt tətbiq edilir. Güzəşt müddəti bitdikdən sonra həm sığortaolunanın gəlirlərindən, həm də sığortaedənin vəsaiti hesabına əməkhaqqının 8000 manatadək hissəsindən 2 faiz olmaqla ümumilikdə 4 faiz dərəcə ilə icbari tibbi sığorta haqqı tutulacaqdır.

**Bəyannamənin təqdim edilmə müddəti:**
Hər rüb üzrə rüb başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq "Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi, məcburi dövlət sosial sığorta, işsizlikdən sığorta və icbari tibbi sığorta haqları bəyannaməsi (hesabatı)" vergi ödəyicisinin uçotda olduğu vergi orqanına təqdim edilməlidir.

**Misal:** Pərakəndə ticarətlə məşğul olan özəl müəssisədə muzdla işləyən işçinin əsas iş yeri üzrə aylıq əmək haqqı 600 manat olmuşdur. Bu halda işçinin (sığortaolunanın) aylıq əmək haqqından və işəgötürənin (sığortaedənin) vəsaiti hesabına aşağıdakı qaydada gəlir vergisi, məcburi dövlət sosial sığorta, işsizlikdən sığorta və icbari tibbi sığorta haqları hesablanaraq tutulacaqdır:

1. Gəlir vergisi tutulmur (aylıq əmək haqqı 8000 manatdan az olduğu üçün).
2. Cəmi hesablanmalı məcburi dövlət sosial sığorta haqqı - 150 manat (46+104):
    2.1. İşçinin gəlirindən - 46 manat (600 manat əmək haqqının 200 manat hissəsinə görə 3%-i, yəni 6 manat, 200 manatdan yuxarı hissə üçün 400 manatın 10%-i, yəni 40 manat, ümumilikdə isə 6+40=46 manat).
    2.2. İşəgötürənin vəsaiti hesabına - 104 manat (600 manat əmək haqqının 200 manat hissəsinə görə 22%, yəni 44 manat, 200 manatdan yuxarı hissə üçün 400 manatın 15%-i, yəni 60 manat, ümumilikdə isə 44+60=104 manat).
3. Cəmi hesablanmalı icbari tibbi sığorta haqqı - 12 manat (6+6):
    3.1. İşçinin gəlirindən - 6 manat (600*1%).
    3.2. İşəgötürənin vəsaiti hesabına - 6 manat (600*1%).
4. Cəmi hesablanmalı işsizlikdən sığorta haqqı - 6 manat (3+3):
    4.1. İşçinin gəlirindən - 3 manat (600*0,5%).
    4.2. İşəgötürənin vəsaiti hesabına - 3 manat (600*0,5%).

Bu hesablama üzrə işçinin aylıq gəlirindən cəmi tutulmalı olan sığorta haqları 55 manat (46+6+3), işəgötürənin vəsaiti hesabına cəmi hesablanmalı olan sığorta haqları 113 manat (104+6+3), ümumilikdə isə 168 manat (55+113) olacaqdır ki, həmin sığorta haqları da sonrakı ayın 15-dən gec olmayaraq, tam məbləğdə nağdsız hesablaşma qaydasında aidiyyəti fondlara ödənilməli və bu barədə "Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi, məcburi dövlət sosial sığorta, işsizlikdən sığorta və icbari tibbi sığorta haqları bəyannaməsi (hesabatı)" hər rüb üzrə rüb başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq vergi orqanına təqdim edilməlidir.

## Neft-qaz sahəsində fəaliyyəti olan və dövlət sektoruna aid edilən vergi ödəyicilərində işləyən fiziki şəxslərin muzdlu işdən aylıq gəlirləri üzrə

**Muzdlu işlə əlaqədar əmək haqqından tutulan gəlir vergisi üzrə:**

- Vergi tutulan aylıq gəlirin məbləği 2500 manatadək olduqda 14 faiz (əsas iş yerində 2500 manatadək olan aylıq əmək haqqının 200 manat olan hissəsi gəlir vergisindən azaddır);
- Vergi tutulan aylıq gəlirin məbləği 2500 manatdan çox olduqda 350 manat + 2500 manatdan çox olan məbləğin 25 faizi həcmində gəlir vergisi tutulur.

**Məcburi dövlət sosial sığorta haqqı üzrə**

- Sığortaedən tərəfindən – hesablanmış əməyin ödənişi fondunun və məcburi dövlət sosial sığortasına cəlb olunan digər gəlirlərin 22 faizi;
- Sığortaolunan tərəfindən – işçinin əməkhaqqının və məcburi dövlət sosial sığortasına cəlb olunan digər gəlirlərinin 3 faizi.

**İcbari tibbi sığorta haqqı üzrə**
Sığortaolunanın sığorta haqqına cəlb edilən aylıq gəlirlərinin 8000 manatadək olan hissəsinin 2 faizi, 8000 manatdan yuxarı olan hissəsinin 0,5 faizi, sığortaedənin vəsaiti hesabına isə sığortaolunanın sığorta haqqına cəlb edilən aylıq gəlirlərinin 8000 manatadək olan hissəsinin 2 faizi, 8000 manatdan yuxarı olan hissəsinin 0,5 faizi dərəcəsi ilə icbari tibbi sığorta haqqı tutulur.

**İşsizlikdən sığorta haqqı üzrə:**

- Sığortaedən tərəfindən ödənilən sığorta haqqı üzrə – hesablanmış əməyin ödənişi fondunun 0,5 faizi;
- Sığortaolunan tərəfindən ödənilən sığorta haqqı üzrə – işçinin əməkhaqqının 0,5 faizi həcmində işsizlikdən sığorta haqqı tutulur.

**Hesablanmış məbləğlərin ödənilmə müddəti:**

- fiziki şəxslərin aylıq gəlirlərindən ödəmə mənbəyində tutulan gəlir vergisi növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli;
- hər ay üçün əmək haqqı və digər gəlirlər üzrə ödənişlərlə eyni vaxtda məcburi dövlət sosial sığorta, işsizlikdən sığorta və icbari tibbi sığorta haqları hesablanmalı, sonrakı ayın 15-dən gec olmayaraq, tam məbləğdə nağdsız hesablaşma qaydasında aidiyyəti fondlara ödənilməlidir

**Bəyannamənin təqdim edilmə müddəti:**
Hər rüb üzrə rüb başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq “Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi, məcburi dövlət sosial sığorta, işsizlikdən sığorta və icbari tibbi sığorta haqları bəyannaməsi (hesabatı)” vergi ödəyicisinin uçotda olduğu vergi orqanına təqdim edilməlidir.

**Misal:** Dövlət müəssisəsində muzdla işləyən işçinin əsas iş yeri üzrə aylıq əmək haqqı 600 manat olmuşdur. Bu halda işçinin (sığortaolunanın) aylıq əmək haqqından və işəgötürənin (sığortaedənin) vəsaiti hesabına aşağıdakı qaydada gəlir vergisi, məcburi dövlət sosial sığorta, işsizlikdən sığorta və icbari tibbi sığorta haqları hesablanaraq tutulacaqdır:

1. Gəlir vergisi – 56 manat (600-200*14%).
2. Cəmi hesablanmalı məcburi dövlət sosial sığorta haqqı - 150 manat (18+132):
   2.1. İşçinin gəlirindən - 18 manat (600 *3%).
   2.2. İşəgötürənin vəsaiti hesabına - 132 manat (600*22%).
3. Cəmi hesablanmalı icbari tibbi sığorta haqqı - 24 manat (12+12):
   3.1. İşçinin gəlirindən - 12 manat (600*2%).
   3.2. İşəgötürənin vəsaiti hesabına - 12 manat (600*2%)
4. Cəmi hesablanmalı işsizlikdən sığorta haqqı - 6 manat (3+3):
   4.1. İşçinin gəlirindən - 3 manat (600*0,5%).
   4.2. İşəgötürənin vəsaiti hesabına - 3 manat (600*0,5%).

Bu hesablama üzrə işçinin aylıq gəlirindən tutulmalı olan gəlir vergisi 56 manat, cəmi tutulmalı olan sığorta haqları 33 manat (18+12+3), işəgötürənin vəsaiti hesabına cəmi hesablanmalı olan sığorta haqları 147 manat (132+12+3), ümumilikdə isə 56 manat gəlir vergisi növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə, 180 manat (33+147) sığorta haqları isə sonrakı ayın 15-dən gec olmayaraq, tam məbləğdə nağdsız hesablaşma qaydasında aidiyyəti fondlara ödənilməli və bu barədə “Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi, məcburi dövlət sosial sığorta, işsizlikdən sığorta və icbari tibbi sığorta haqları bəyannaməsi (hesabatı)” hər rüb üzrə rüb başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq vergi orqanına təqdim edilməlidir.

## Fərdi sahibkarların fəaliyyət sahələri üzrə məcburi dövlət sosial sığorta haqqının hesablanmasının xüsusiyyətləri barədə

**Sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər öz fəaliyyət sahələri üzrə məcburi dövlət sosial sığorta haqqını aşağıdakı dərəcələrlə hesablayıb ödəməlidirlər:**
Tikinti sahəsində sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər hər ay ölkə üzrə müəyyən edilmiş minimum aylıq əmək haqqının 50 faizi, digər sahələrdə sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər isə 25 faizi miqdarının

- Bakı şəhərində 100 faizi,
- Sumqayıt və Gəncə şəhərində 90 faizi,
- digər şəhərlərdə 80 faizi,
- rayon inzibati ərazi vahidlərinin inzibati mərkəzi olan inzibati ərazi vahidlərində və qəsəbələrdə 60 faizi,
- kənd yerlərində 50 faizi miqdarında məcburi dövlət sosial sığorta haqqı hesablanmalıdır.

**Hesablanmış məbləğlərin ödənilmə müddəti:**
Məcburi dövlət sosial sığorta haqqı hər ay üçün hesablanmalı, sonrakı ayın 15-dən gec olmayaraq, tam məbləğdə nağdsız hesablaşma qaydasında aidiyyəti fonda ödənilməlidir.

**Bəyannamənin təqdim edilmə müddəti:**
Hər rüb üzrə rüb başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq “Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi, məcburi dövlət sosial sığorta, işsizlikdən sığorta və icbari tibbi sığorta haqları bəyannaməsi (hesabatı)” vergi ödəyicisinin uçotda olduğu vergi orqanına təqdim edilməlidir.

**Misal:** Fərdi sahibkar Sumqayıt şəhərində pərakəndə ticarət fəaliyyəti ilə məşğul olur. Bu halda onun qeyd edilən sahibkarlıq fəaliyyəti üzrə ödəməli olduğu aylıq məcburi dövlət sosial sığorta haqqının məbləği 56,25 manat (minimum aylıq əməkhaqqı 250 * 25% * Sumqayıt şəhəri üzrə 90%) olacaqdır.

## Mülki hüquqi xarakterli müqavilələrlə işləyənlərin (fərdi sahibkarlar istisna olmaqla), xüsusi notariusların, müəlliflik qonorarı ödəyən hüquqi və fiziki şəxslərin, vəkillər kollegiyasının üzvlərinin, sərbəst auditorların və sərbəst mühasiblərin məcburi dövlət sosial sığorta haqqının hesablanmasının xüsusiyyətləri barədə

**Qeyd edilən şəxslər üzrə məcburi dövlət sosial sığorta haqqı aşağıdakı dərəcələrlə hesablanıb ödənilməlidir:**

- mülki hüquqi xarakterli müqavilələrlə işləyənlər (fərdi sahibkarlar istisna olmaqla) üzrə ödəmə mənbəyindən tutulmaqla - gəlirlərinin 25 faizi miqdarında;
- xüsusi notariuslar üzrə - minimum aylıq əməkhaqqının on mislinin 25 faizi miqdarında;
- müəlliflik qonorarı ödəyən hüquqi və fiziki şəxslər üçün ödəmə mənbəyindən tutulmaqla - hesablanmış qonorar məbləğinin 15 faizi miqdarında;
- vəkillər kollegiyasının üzvləri, sərbəst auditorlar, sərbəst mühasiblər - gəlirlərinin (xərclər çıxılmaqla) 10 faizi miqdarında.

**Hesablanmış məbləğlərin ödənilmə müddəti:**
Məcburi dövlət sosial sığorta haqqı hər ay üçün hesablanmalı, sonrakı ayın 15-dən gec olmayaraq, tam məbləğdə nağdsız hesablaşma qaydasında aidiyyəti fonda ödənilməlidir.

**Bəyannamənin təqdim edilmə müddəti:**
Hər rüb üzrə rüb başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq "Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi, məcburi dövlət sosial sığorta, işsizlikdən sığorta və icbari tibbi sığorta haqları bəyannaməsi (hesabatı)" vergi ödəyicisinin uçotda olduğu vergi orqanına təqdim edilməlidir.

**Misal:** Fiziki şəxs xüsusi notarius fəaliyyəti ilə məşğul olur. Bu halda həmin fiizki şəxsin xüsusi notarius fəaliyyəti üzrə ödəməli olduğu aylıq məcburi dövlət sosial sığorta haqqının məbləği 625 manat (minimum aylıq əməkhaqqı 250 * 10 misli * 25%) olacaqdır.

**Əməkhaqqı istisna olmaqla digər mənbələrdən hesablanan icbari tibbi sığorta haqqı barədə**

- Azərbaycan Respublikasının Vergi Məcəlləsinə əsasən sahibkarlıq fəaliyyətinin və ya digər vergi tutulan əməliyyatlarının müvəqqəti dayandırıldığı hallar istisna olmaqla, vergi ödəyicisi kimi vergi uçotuna alınmış fiziki şəxslər (fərdi sahibkarlar, xüsusi notariuslar, vəkillər kollegiyasının üzvləri) minimum aylıq əməkhaqqının 4%-i miqdarında;
- Mülki-hüquqi müqavilələr əsasında işləri (xidmətləri) yerinə yetirən fiziki şəxslər üzrə onları işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edən şəxslər tərəfindən tutulmaqla aylıq gəlirlərinin 8000 manatadək olan hissəsinin 2%-i, 8000 manatdan yuxarı olan hissəsinin 1%-i miqdarında icbari tibbi sığorta haqqı hesablanaraq ödənilməlidir.

**Hesablanmış məbləğlərin ödənilmə müddəti:**
İcbari tibbi sığorta haqqı hər ay üçün hesablanmalı, sonrakı ayın 15-dən gec olmayaraq, tam məbləğdə nağdsız hesablaşma qaydasında aidiyyəti fonda ödənilməlidir.

**Bəyannamənin təqdim edilmə müddəti:**
Hər rüb üzrə rüb başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq "Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi, məcburi dövlət sosial sığorta, işsizlikdən sığorta və icbari tibbi sığorta haqları bəyannaməsi (hesabatı)" vergi ödəyicisinin uçotda olduğu vergi orqanına təqdim edilməlidir.

- Azərbaycan Respublikasının ərazisində istehsal edilərək daxili istehlaka yönəldilən (topdan satılan) və respublika ərazisinə idxal olunan avtomobil benzini, dizel yanacağı və maye qazın hər litrinə görə 0,02 manat məbləğində icbari tibbi sığorta haqqı hesablanaraq ödənilməlidir.

**Hesablanmış məbləğlərin ödənilmə və bəyannamənin (hesabatın) təqdim edilmə müddəti:**
Bu vergi ödəyiciləri tərəfindən qeyd edilən mallar üzrə sığorta haqqı aylıq olaraq hesablanmalı, hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq "Yol vergisi və icbari tibbi sığorta haqları üzrə bəyannaməsi (hesabatı)" təqdim edilməli və hesablanmış sığorta haqqı həmin müddətdə aidiyyəti fonda ödənilməlidir.

- Aşağıda sadalanan aksizli mallar üzrə qeyd edilən dərəcələrlə icbari tibbi sığorta haqqı hesablanaraq ödənilməlidir.
  - araq (vodka), tündləşdirilmiş içkilər və tündləşdirilmiş içki materialları, likyor və likyor məmulatlarının hər litrinə görə tətbiq edilən aksiz dərəcəsinin 0,2 manatı məbləğində;
  - pivə (alkoqolsuz pivə istisna olmaqla) və pivə tərkibli digər içkilərin hər litrinə görə tətbiq edilən aksiz dərəcəsinin 0,05 manatı məbləğində;
  - siqarilla (nazik siqarlar) və tütündən hazırlanan siqaretlər və onun əvəzedicilərinin 1000 ədədinə görə tətbiq edilən aksiz dərəcəsinin 1,5 manatı məbləğində;
  - energetik içkilərin hər litrinə görə tətbiq edilən aksiz dərəcəsinin 0,1 manatı məbləğində.

**Hesablanmış məbləğlərin ödənilmə və bəyannamənin təqdim edilmə müddəti:**
Aksizli malların ödəyiciləri tərəfindən aksizlərə cəlb edilən həmin mallar üzrə sığorta haqqı aylıq olaraq hesablanmalı, hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq "Aksiz bəyannaməsi" təqdim edilməli və hesablanmış sığorta haqqı həmin müddətdə aidiyyəti fonda ödənilməlidir.

## Azadolmalar barədə

**Gəlir vergisindən və məcburi dövlət sosial sığorta haqqından azaddır:**

- Rotasiya qaydasında xaricə ezamiyyətə göndərilən diplomatik xidmət əməkdaşlarının və diplomatik xidmət orqanlarının inzibati-texniki xidmətini həyata keçirən şəxslərin, mühafizəsi zəruri hesab edilən respublikanın xarici ölkələrdə və beynəlxalq təşkilatlarda fəaliyyət göstərən diplomatik nümayəndəliklərinin və konsulluqlarının mühafizəsini həyata keçirən hərbi qulluqçuların xarici ölkədə aldığı əmək haqqı;
- Nazirlər Kabinetinin qərarı ilə müəyyən edilmiş ezamiyyə xərclərinin məbləğləri, iş vaxtı daimi yolda olan və ya işi gediş-gəliş (səyyar) xarakteri daşıyan, çöl təşkilatlarında işləyən işçilərə gündəlik ezamiyyə xərclərinin əvəzində verilən əlavə vəsaitin qanunvericiliklə nəzərdə tutulan məbləği, Nazirlər Kabineti tərəfindən müəyyən edilmiş dəniz nəqliyyatında ezamiyyə xərcləri əvəzinə üzücü heyətin üzvlərinə sutkalıq ödənişlərin qanunvericiliklə nəzərdə tutulan məbləği;
- işçilərin sayının və ştatların ixtisar edilməsi ilə əlaqədar olaraq əmək müqaviləsinə xitam verildikdə işçilərə Azərbaycan Respublikasının Əmək Məcəlləsinə müvafiq ödənilən təminatlar;

- əmək şəraiti zərərli, ağır olan və yeraltı işlərdə çalışan işçilərə verilən pulsuz müalicə-profilaktik yeməklər, süd və ona bərabər tutulan digər məhsulların dəyəri və işçilərə müəyyən edilmiş müddətlərdə və tələb olunan çeşidlərdə verilən xüsusi geyim, xüsusi ayaqqabı və digər fərdi mühafizə vasitələrinin dəyəri;
- İstehsalatdan ayrılmaqla təhsil almağa göndərilmiş tələbələrə, doktorantlara və magistrlərə müəssisə və təşkilatların hesabına ödənilən təqaüd məbləğləri;
- aliment ödənişləri, donorluq zamanı verilən qan və qan komponentləri üçün haqq;
- sığorta hadisəsi baş verdikdə sığorta olunanın və faydalanan şəxsin həyatına, habelə onun əmlakın və ya əmlak mənafelərinə dəymiş zərərin əvəzini ödəmək üçün pul və ya natura şəklində ödənilmiş vəsait, həmçinin işəgötürən (sığortaedən) tərəfindən ödənilən bütün növ icbari sığorta və könüllü tibbi sığorta haqları, 3 ildən az olmayan müddətə bağlanan müqavilə ilə həyatın yığım sığortası və pensiya sığortası üzrə işəgötürənin sığortaolunanın vergiyə cəlb olunan gəlirlərinin 50 faizindən çox olmayan hissəsindən respublikanın sığortaçılarına ödədikləri sığorta haqları, həyatın yığım sığortası və pensiya sığortası üzrə müqavilənin qüvvəyə mindiyi andan etibarən 3 illik müddət keçdikdən sonra sığorta olunana və faydalanan şəxsə ödənilən hər hansı məbləğlər;
- yarışlarda və müsabiqələrdə əşya şəklində alınan mükafatların tam dəyəri;
- təbii fəlakət və digər fövqəladə hallarla əlaqədar Azərbaycan Respublikası Prezidentinin və Nazirlər Kabinetinin öz səlahiyyətləri daxilində qərarları əsasında, habelə xarici dövlətlər və digər təşkilatlar tərəfindən göstərilən birdəfəlik yardımlar;
- ictimai təşkilatlar, xeyriyyə cəmiyyətləri və fondları tərəfindən verilən maddi yardımlar;
- Mənəvi Dəyərlərin Təbliği Fondu tərəfindən ödənilən maddi yardım (dəstək);
- dövlət qulluqçusu pensiya yaşına çatmasına görə könüllü işdən çıxması ilə əlaqədar verilən birdəfəlik haqq.

**Yalnız gəlir vergisindən azaddır:**

- Azərbaycan Respublikasının xarici ölkələrdə fəaliyyət göstərən səfirlik və konsulluqlarında ticarət nümayəndələrinin və onların aparatlarının işçilərinin, Azərbaycan vətəndaşı olmayan diplomatik və ya konsulluq əməkdaşlarının rəsmi məşğulluğundan gəlir;
- əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə ödənilən müavinətlər istisna olmaqla, dövlət müavinətləri, əvəzsiz dövlət köçürmələri, dövlət pensiyaları, dövlət təqaüdləri, habelə respublika qanunları və Azərbaycan Respublikasının Prezidentinin qərarları əsasında dövlət büdcəsinin vəsaiti hesabına fərdi birdəfəlik ödəmələr və ya maddi yardımlar;
- Azərbaycan Respublikasının rezidenti olmayan şəxsin iş yerindən gəlir - əgər bu gəlir respublikanın rezidenti olmayan işə götürən tərəfindən, yaxud onun adından ödənilirsə və qeyri-rezidentin daimi nümayəndəliyi tərəfindən və ya onun adından, yaxud daimi nümayəndəlikdə fəaliyyəti ilə əlaqədar ödənilmirsə;
- təqvim ili ərzində alınan hədiyyələrin, təhsil və ya müalicə haqlarını ödəmək üçün maddi yardımın, birdəfəlik müavinətin dəyərinin 1000 manatadək olan hissəsi, xaricdə müalicə haqlarını ödəmək üçün maddi yardımın dəyərinin 2000 manatadək olan hissəsi, mirasların dəyərinin 20000 manatadək olan hissəsi;
- hədiyyə, maddi yardım və miras vergi ödəyicisinin ailə üzvlərindən alındığı halda, onun tam dəyəri;
- dəymiş zərərlərin ödənilməsi ilə bağlı alınan kompensasiya ödənişləri;
- kompensasiya xarakterli müxtəlif ödənişlər;
- işəgötürən tərəfindən işçinin hərbi və alternativ xidmətə çağırılması ilə əlaqədar ödənilən müavinətlərin qanunvericilikdə nəzərdə tutulan məbləği;
- beynəlxalq yarışlarda və müsabiqələrdə pul şəklində alınan mükafatların 4000 manatadək olan dəyəri;
- respublika, şəhər və rayon yarışlarında və müsabiqələrində 200 manatadək olan dəyəri;
- Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondu tərəfindən zəmanət verilmiş kredit üzrə ödəniş edilməsi hallarında borcalanların borclarının ödənilməsinin nəticəsi kimi əldə edilən gəlirləri.

# UNUTMAYIN Kİ...

- Fiziki şəxslərin əmək kitabçasının olduğu əsas iş yerində hər hansı muzdlu işlə əlaqədar əldə edilən aylıq gəliri 2500 manatadək olduqda 200 manat məbləğində olan hissəsi azaldılır.
- İki və ya daha çox yerdə muzdla işləyən fiziki şəxslərin gəlirlərindən gəlir vergisi hər bir iş yerində ödənilən məbləğdən ayrıca hesablanır və dövlət büdcəsinə ödənilir.
- 3 ildən az olmayan müddətə bağlanan, lakin vaxtından əvvəl xitam verilən həyatın yığım sığortası üzrə və pensiya sığortası müqaviləsi üzrə sığorta haqlarından
    - neft-qaz sahəsində fəaliyyəti olmayan və qeyri-dövlət sektoruna aid edilən vergi ödəyicilərində işləyən fiziki şəxslərin vergi tutulan aylıq gəlirinin məbləği 8000 manatadək olduqda 0 faiz, 8000 manatdan çox olan hissəsindən 14 faizi dərəcə ilə,
    - neft-qaz sahəsində fəaliyyəti olan və dövlət sektoruna aid edilən vergi ödəyicilərində işləyən fiziki şəxslərin vergi tutulan aylıq gəlirinin məbləği 2500 manatadək olduqda 14 faiz, 2500 manatdan çox olan hissəsi üzrə 350 manat + 2500 manatdan çox olan hissəsindən 25 faiz dərəcə ilə,
- 3 ildən az olmayan müddətə bağlanan, lakin vaxtından əvvəl xitam verilən həyatın yığım sığortası üzrə sığorta haqları ilə sığorta ödənişləri arasındakı fərq kimi alınan gəlirdən 10 faiz dərəcə ilə,
- qeyri-dövlət fondlarının ödədiyi pensiyalardan, habelə vergi uçotunda olmadan, VÖEN təqdim edilmədən göstərilən iş və xidmətlərə görə fiziki şəxsə ödənilən gəlirlərdən isə vergi tutulan aylıq gəlirin məbləği 2500 manatadək olduqda 14 faiz, 2500 manatdan çox olan hissə üzrə isə 350 manat + 2500 manatdan çox olan hissəsindən 25 faizi dərəcəsi ilə ödəmə mənbəyində vergi tutulur.

**Yalnız məcburi dövlət sosial sığorta haqqından azaddır:**

- Azərbaycan Respublikasının qanunları və Azərbaycan Respublikası Prezidentinin qərarları əsasında dövlət büdcəsinin vəsaiti hesabına verilən dövlət təqaüdləri və dövlət müavinətləri;
- müəssisənin ləğvi və işçinin vəfatı ilə əlaqədar əmək müqaviləsinə xitam verilərkən birdəfəlik ödənilən məbləğlər;
- məcburi dövlət sosial sığorta haqları hesabına verilən sosial sığorta ödəmələrinin məbləğləri;
- fəaliyyətləri Beynəlxalq Humanitar Yardım üzrə Respublika Komissiyası vasitəsilə əlaqələndirilən beynəlxalq, yerli humanitar və onların təsis etdikləri inkişaf təşkilatlarının (sığortaedənlərin) donor ölkə, təşkilat, özəl şirkətlər tərəfindən maliyyələşdirilən humanitar proqramlar çərçivəsində ayrılan vəsait hesabına əcnəbilər üzrə formalaşan əmək haqqı fondu (Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 1 iyul tarixli, 298 nömrəli sərəncamı ilə təsdiq olunmuş «Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı»nın icrası müddətində);
- sığortaedənin vəsaiti hesabına əmək qabiliyyətini müvəqqəti itirməyə görə verilən müavinət;
- muzdlu işə və sahibkarlıq fəaliyyətinə aid olmayan gəlirlər (faiz gəliri, dividend, əmlakın icarəyə verilməsindən gəlir, royalti (müəlliflik qonorarı istisna olmaqla), sahibkarlıq fəaliyyəti məqsədləri üçün istifadə olunmayan aktivlərin təqdim edilməsindən gəlir, hədiyyə və mirasların məbləği, idman oyunları ilə əlaqədar aparılan mərc oyunlarından, lotereyaların keçirilməsindən, habelə digər yarışlardan və müsabiqələrdən pul şəklində əldə edilən uduşlar);
- dövlət orqanları tərəfindən köçürmə yolu ilə başqa yerlərə işləməyə göndərilən işçilərə köçürülmə və kirayə xərclərinin əvəzi üçün ödənilən kompensasiya;
- yarışlarda və müsabiqələrdə pul şəklində alınan mükafatların dəyəri;
- əmək xəsarəti və ya sağlamlığın başqa cür pozulması nəticəsində işçilərə dəymiş zərərin əvəzində verilən ödəmələr;
- sığortaedənin işçilərinin yeməklə təmin edilməsi ilə bağlı üçüncü tərəfə ödədiyi vəsait.

# GÜZƏŞTLƏR BARƏDƏ

- Aşağıdakı fiziki şəxslərin hər hansı muzdlu işdən vergi tutulmalı olan aylıq gəliri 400 manat məbləğində azaldılır:
  - Milli Qəhrəmanların;
  - Sovet İttifaqı və Sosialist Əməyi Qəhrəmanlarının;
  - müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin;
  - həlak olmuş, yaxud sonradan vəfat etmiş döyüşçülərin dul arvadlarının (ərlərinin) və övladlarının;
  - 1941-1945-ci illərdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallar ilə təltif edilmiş şəxslərin;
  - müharibə veteranı adı almış şəxslərin;
  - atom obyektlərində radiasiya nəticəsində şüa xəstəliyinə və şüa yükü ilə əlaqədar xəstəliyə tutulmuş və ya bu xəstəlikləri keçirmiş şəxslərin.

- I və II dərəcə əlilliyi olan şəxslərin (müharibə ilə əlaqədar əlilliyi olan şəxslər istisna olmaqla), sağlamlıq imkanları məhdud 18 yaşadək uşaqların, daimi qulluq tələb edən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşağa və ya I dərəcə əlilliyi olan şəxsə baxan və onunla birlikdə yaşayan valideynlərdən (o cümlədən övladlığa götürən şəxslərdən) birinin (özlərinin istəyi ilə), arvadın (ərin), himayəçinin və ya qəyyumun hər hansı muzdlu işdən vergi tutulmalı olan aylıq gəliri 200 manat məbləğində azaldılır.

- Aşağıdakı fiziki şəxslərin hər hansı muzdlu işdən vergi tutulmalı olan aylıq gəliri 100 manat məbləğində azaldılır:
  - həlak olmuş, yaxud sonradan vəfat etmiş döyüşçülərin valideynləri, habelə vəzifələrinin icrası zamanı həlak olmuş dövlət qulluqçularının valideynləri və təkrarən nikaha girməmiş arvadları (ərləri);
  - 1990-cı il yanvarın 20-də SSRI qoşunlarının müdaxiləsi nəticəsində, habelə respublikanın ərazi bütövlüyünün müdafiəsi zamanı həlak olmuş şəxslərin valideynləri və təkrarən nikaha girməmiş arvadları (ərləri);
  - Əfqanıstana və döyüş əməliyyatları aparan başqa ölkələrə göndərilmiş hərbi qulluqçular və ya təlim-yoxlama toplanışlarına çağırılmış hərbi vəzifəlilər;
  - ayrıca mənzil sahəsi əldə etməsi nəticəsində daimi məskunlaşmamış məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər.

- Fiziki şəxsin yuxarıda göstərilən güzəştlərin bir neçəsi üzrə güzəşt hüququ olduqda, ona bu güzəştlərdən biri, məbləğcə ən böyük olanı verilir.
- Qohumluq dərəcəsindən asılı olmayaraq himayəsində azı üç nəfər, o cümlədən gündüz təhsil alan 23 yaşınadək şagirdlər və tələbələr olan ər və ya arvaddan birinin vergi tutulmalı olan aylıq gəliri 50 manat məbləğində azaldılır.

---

**İşsizlikdən sığorta haqqında Qanun**
**siyasi vəzifə tutan şəxslərə şamil edilmir.**

İcbari tibbi sığorta müddətli həqiqi hərbi xidmət hərbi qulluqçulara, həbs edilmiş şəxslərə, müəyyən müddətə azadlıqdan məhrumetmə və ömürlük azadlıqdan məhrum etmə növündə cəza çəkən şəxslərə (məntəqə tipli cəzaçəkmə müəssisələri istisna olmaqla), Miqrasiya Məcəlləsinə əsasən respublikada müvəqqəti olan, müvəqqəti və ya daimi yaşayan əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə (respublikada qaçqın statusu almış və BMT-nin Qaçqınlar üzrə Ali komissarının respublikadakı nümayəndəliyi tərəfindən himayəyə götürülmüş əcnəbilər və vətəndaşlığı olmayan şəxslər istisna olmaqla) şamil edilmir.

**Qeyd:** "Fərqlənmə nişanı" və "Sadələşdirilmiş vergi üzrə sabit məbləğin və məcburi dövlət sosial sığorta haqqının ödənilməsi haqqında qəbz"in alması ilə bağlı ətraflı məlumatı "Sərnişin və yük daşıma fəaliyyəti ilə məşğul olan şəxslər tərəfindən ödənilən sadələşdirilmiş vergi, məcburi dövlət sosial sığorta və icbari tibbi sığorta haqları" və "Aylıq sabit məbləğdə sadələşdirilmiş verginin, məcburi dövlət sosial sığorta və icbari tibbi sığorta haqlarının hesablanması və ödənilməsi" bukletlərindən əldə edə bilərsiniz.

## BUNULA BELƏ, BİLMƏLİSİNİZ Kİ...

- Əmək haqqından tutulan vergi hesablanarkən fiziki şəxslərin vergi güzəştləri hüququ qanunla müəyyən edilmiş sənədlərin təqdim edildiyi andan yaranır və yalnız fiziki şəxsin əsas iş yerində (əmək kitabçasının olduğu yerdə) həyata keçirilir.

## MALİYYƏ SANKSİYALARI, FAİZLƏR VƏ DİGƏR MƏSULİYYƏT TƏDBİRLƏRİ BARƏDƏ

Vergi və sığorta qanunvericiliyinin pozulması hallarına görə tətbiq olunan maliyyə sanksiyaları və digər məsuliyyət tədbirləri barədə məlumatı "Maliyyə sanksiyaları, faizlər və digər məsuliyyət tədbirləri barədə Yaddaş" adlı bukletdən əldə edə bilərsiniz.

VEGİLƏRƏ AİD NƏŞRLƏR

195
Az1073, Azərbaycan, Bakı, Landau küçəsi, 16
Tel: +994 12 403 89 70; Faks: +994 12 403 89 71
E-poçt: office@taxes.gov.az
www.taxes.gov.az